**Laçında təşkil olunmuş "Gənclər Yaşıl Dünya Naminə" Diaspor Gənclərinin V Yay Düşərgəsinin rəsmi bağlanış mərasimi keçirilib.**

Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, mərasimdə Komitənin sədr müavini Elşad Əliyev çıxış edərək V Yay Düşərgəsinin buraxacağına inandığını bildirib. Laçının ilk dəfə olaraq dünyanın 60 ölkəsindən gələn qonağa ev sahibliyi etdiyini vurğulayıb. Ənənə halını alan Yay düşərgələrinin xaricdə yaşayan azərbaycanlı gənclərin vətənlə əlaqələrini möhkəmlətmək və öz soykökünə, mədəniyyətinə bağlılığını qoruyub saxlamaq məqsədi daşıdığını söyləyib, gəncləri diaspor fəaliyyətində və Azərbaycan



# Diaspor Gənclərinin V Yay Düşərgəsinin rəsmi bağlanış mərasimi

Azərbaycanın dilbər guşələrindən olan Laçında keçirilməsinin önəmindən danışıb və bu düşərgənin gənclərin yaddaşında silinməz izlər həqiqətlərinin təbliğində fəal olmağa çağırıb. Sədr müavini bu cür tədbirlərin vətənpərvər gənclərin informasiya müharibəsində üstünlük qazanmasında, eyni zamanda dezinformasiyaların qarşısının alınmasında çox ciddi rol oynadığını diqqətə çatdırıb.



Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin rəsmisi Hüseyn Quliyev bildirib ki, dünyanın 60 ölkəsindən 115 gəncin Laçında olması, düşərgədə iştirak etməsi çox qürurverici hadisədir. Bu cür tədbirlərin gələcəkdə də Laçında keçiriləcəyinə əminliyi ifadə edib.

Sonra düşərgə iştirakçılarına sertifikatlar, breyn-rinq və futbol oyunlarının qaliblərinə mükafatlar təqdim olunub.

**M.MUSTAFAYEV, "Respublika".**